# "Baş tutmayan intihar"

**Yazıçı-publisist Camal Zeynaloğlunun "Print-S" nəşriyyatı tərəfindən "Baş tutmayan intihar" adlı daha bir yeni kitabı çapdan çıxıb. Bu müəllifin sayca on doqquzuncu kitabıdır. Kitabda müəllifin son dövrlərdə qələmə aldığı insanları xeyirxah əməllər görməyə, onlarla daim səmimi ünsiyyətdə olmağa, incik könüllərə qüdrətli Sözün köməyilə məlhəm qoymağa, paxıl insanlardan uzaq durmağa, müqəddəs, saf eşqə sahib çıxmağa, onu qorumağa, lazım gəldikdə canından belə keçməyə hazır olmağa səsləyən və eləcə də Qarabağ savaşına həsr etdiyi hekayə və esseləri toplanmışdır.**




Kitabda yazıçının "Baş tutmayan intihar", "Tində dayanmış qadın", "Quru çörək", "Qonşu tikəsi", "Tövbə", "Haram tikə", "Xəcalət təri", "Paxıllıq", "Snayperçi qız", "O müdhiş gecə", "Mühasirə", "Qanlı məktub" və "Qəndəharda "ov" əməliyyatı" adlı hekayələri və Azərbaycanın Milli qəhrəmanı Aqil Quliyevə həsr etdiyi "Aqil yanğısı", "O gecə ölüm mələyi enmişdi yerə", "Dərdim dağlar əridər", "Gizli eşq" esseləri də yer almışdır. Müəllif kitabını "Sevgi və hikmət dolu sətirlər"lə bitirir. İnanırıq ki, C.Zeynaloğlunun bu kitabı da oxucuları və onu sevənləri tərəfindən maraqla qarşılanacaq.

**Əbülfət Mədətoğlu**